# Vətən tarixini yeni yazanlar

Şəhidlər!- Bu ad hər kəsə nəsib olmur. Bu ad şərəf adıdır, qürur adıdır! Bu ad ölümün ən yüksək pilləsidir, ölümün ölməzlik adıdır!

Bu adı daşıyanlar həmişə başqalarından seçilən insanlardır. Həm yaraşıqda, simasındakı məsumluqda, ailəcanlılıqda, insanlara sədaqətində, zəhmətsevərliyində, söz dinləmək, eşitmək xüsusiyyətində, nikbinlikdə, dözümdə, iradədə, torpağa, işə bağlılıqda, inadkarlıqda, çətinliklərə sinə gərməkdə, ən ümdəsi vətən daşı olmaq iqtidarında olması ilə seçilərlər şəhidlər. Onlar torpağı torpaq edən, vətəni vətən edənlərdir. İnsanlara örnək əbədiyaşar bir ömür qazananlardır. Torpaq altdakı ən qiymətli xəzinədir. Çünki torpaq onlara söykənir, torpaq onların çiyinləri üstündədir. Göylərdə yaşar ruhları, cismən torpağa gömülsələr də. Yağışlar onların göz yaşları, qarlar qürurlarıdır, günəş isə gülümsəmələri.

Şəhid adlı insanlardır dünyanın ən qiymətli, əbədiyaşar varlıqları.

Ona görə də onları qələmə almaqda nə yaşların, nə soyadlarının fərqi var, onlar hər biri bizim üçün əlçatmaz bir zirvənin, bir yüksəlişin simvoludur!



**Elin HACIYEVA,**
**Nohurqışlaq kəndi.**

# Vətən Müharibəsində şəhid olmuş qəhrəman oğulların məzarları ziyarət edilib



30 dekabr 2020-ci il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının və digər dövlət qurumlarının rəhbərləri Vətən müharibəsində canlarını qurban vermiş qəhrəman oğulların məzarlarını ziyarət edib, şəhidlərin əziz xatirəsinə sonsuz ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri düzüblər.

# Azərbaycanın Milli Qəhrəmanı general Polad Həşimovun doğum günü qeyd olundu

Yanvarın 2-də Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimovun doğum günü ilə əlaqədar Müdafiə Nazirliyinin bir qrup zabiti, Vətən müharibəsi iştirakçıları, ailə üzvləri və qohumları, bir sözlə, vətənpərvər azərbaycanlılar Bakıdakı II Fəxri Xiyabanda dəfn olunmuş qəhrəmanımızın məzarını ziyarət etmiş, məzarı önünə əklil və gül dəstələri qoymuşlar.



Polkovnik Aydın Əyyubov Müdafiə Nazirliyi adından Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani, şəhidin qardaşı İlham Həşimov və başqaları Polad Həşimovun hərbi fəaliyyəti və qəhrəmanlığı haqqında çıxış etmişlər. Sonra onun ruhuna dualar oxumuş, qəhrəmanın məzarına ziyarət axşam saatlarınadək davam etmişdir.

"Azərbaycanın Milli Qəhrəmanı" General Polad Həşimovun doğum günü münasibəti ilə doğulduğu Vəndam qəsəbəsində anım mərasimi keçirilmişdir. Anım mərasimində Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının və digər dövlət qurumlarının rəhbərləri, şəhidin döyüş yoldaşları, ailə üzvləri ilə yanaşı rayon və qəsəbə ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Tədbirdə Vəndam qəsəbə inzibati ərazi dairə üzrə nümayəndəsi İlham Bağırov, Vəndam qəsəbə 1 saylı tam orta məktəbin müəllimi Rəşad Əhmədov çıxış edərək qəhrəmanın həyatından, döyüş yolundan və 44 günlük Vətən müharibəsində ordumuzun qələbəsindən danışmışlar. Həmçinin tədbirdə şəhidin qohumu Babək Səmədov çıxış etmiş, ölkə rəhbərliyinə və tədbirin təşkilatçılarına təşəkkürünü bildirmişdir. Tədbirdə çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə Vətən müharibəsində qazanılmış böyük qələbəyə və qəhrəman şəhidimizə 9 dekabr 2020-ci ildə verdiyi sərəncama əsasən "Azərbaycanın Milli Qəhrəmanı" adı verdiyinə görə minnətdarlıqlarını bildirmişlər. Sonda şəhidin xatirəsinə dualar oxunmuşdur.

**«Qəbələ»**

# 44 günlük Vətən müharibəsində adları qəhrəmanlıq salnaməsinə yazıldı

Vətənin bütövlüyü uğrunda canlarından keçərək ən uca zirvəyə yüksəldi onlar. Yaşadığı yerdən asılı olmayaraq hamı qarabağlı idi bu zəfər yürüyüşündə. Eləcə də Qəbələmizin igidləri... 37 şəhid verdik bu müddətdə- 28 nəfər əsgər, 3 nəfər gizir, 2 nəfər polkovnik leytenant, 2 nəfər leytenant, 1 nəfər müddətdən artıq hərbi xidmət qulluqçusu və 1 nəfər mayor qurban getdi bu yolda... Amma dəydi... O fatehlər canları, qanları ilə aldılar torpaqlarımızı düşmənin pəncəsindən.

İkinci Vətən müharibəsində göstərdikləri igidliklərə görə Qəbələ şəhidləri ölümündən sonra orden və medallarla təltif olunmuşlar.

Cənnət məkanınızda rahat uyuyun, ölməz şəhidlər! Sizi hər zaman qəlbimizdə yaşadacağıq!

# Xalqın Milli Qəhrəmanı

Bu yerlərin hər qarışını gəzən oğul, bu yerlərin hər daşında, çınqılında izin vardır. Bu torpaqda səndən sonra döyüşənlərin; qazilərin, şəhidlərin ayaq izlərinin öncələrindədir bu izlər! Yatdığın torpaqlara, yastıq etdiyin daşlara hopub nəfəsinin qoxusu. Yorğan etdiyin neçə qışın qarı əridikcə nəfəsinin qoxusu hopub torpağa. Qazdığın, qurduğun səngərlərdə əllərinin hərarəti qalıbmış. O hərarət əsgərlərinin sonrakı şücaətlərində güc verdi onlara. Səngərlərdə uzanarkən göylərə dikilən baxışların ulduz olub gecələrə ,qeybə çəkilərək sonralar gecə döyüşlərində mayak oldu döyüşçülərinə. Sən küləkdən qoruyardın əsgərlərini; o küləklər sənin qorxmazlığını, qətiyyətini, əzmkarlığını, sədaqətini,düşmənə nifrətini, satqına lənətini, vətəninin hər daşında,qayasında mamır olub bitdiyini, əsgərlərinə öyüdünlə, nəvazişinlə,qayğınla bir ata timsalı, ordumuza bir sərkərdə, mayor, general olmaqla qüdrətli bir döyüşçü...bacarıqlı inşaatçı, bilici bənna, istedadlı mexanik, zəkalı, ağıllı bir insan və insanlığı tam mənada özündə cəmləşdirən, vicdanın əlçatmaz ailədəçisi olduğunu səpələdi ətrafa!

Əqidəsi də polad olan Poladımız! Ən ümdəsi düşüncə tərzin sağlamlığın bariz nümunəsi idi. Qəhrəmanlıq həyatının qayəsi idi. Elə bu qayə də Səni müqəddəs and yerinə çevirdi, şəhidlik şəhadətinə qovuşdurdu.

Qəbələni bəmbəyaz qar örtdüyü, yağış damcılarının sal buzlara çevrildiyi bir qış günündə dünyaya göz açmışdı Polad- 2 yanvar,1975-ci il... Artıq bu gün yaddaşlara köçmüş və onun həmişəbahar ömrünün başlanğıcı kimi tarixi günə çevrilmişdir. Bəlkə də doğulduğu sərt qış günü onun xarakterinə, insanlığına məhz qorxmazlıq, dözüm, qətiyyət və möhkəm iradə bəxş etmişdir. Bu sərtlik ona yenilməz ruh vermiş, bu ruhla böyümüş, arzularının işığında hərb yolunu seçmişdir. Arzuları isə bir amal uğrunda idi- azad və bütöv bir Vətən!



Polad Həşimov torpaqlarmızın azad edilməsi, ərazi bütövlüyümüzün təmini uğrunda daima mübarizə apardı. Ətrafındakı hər bir hərbçiyə, əsgərə döyüş taktikasını, əsl döyüşçünün vahid komandanlıqda birləşməsi, hərbi texnikanı mükəmməl öyrənməsi, müxtəlif situasiyalarda əsgərin əsl hərbçi, vətənpərvər hissi və prinsipi ilə hərəkət etməsini, əslində bu işdə hər kəsin öz peşəsinin - insanlığın hərbçisi olmasını öyrədərdi. 2016-cı ilin Aprel döyüşləri və 2020 ci ilin İyul hadisələri buna əyani sübutdur. Onun nəfəsinin dayandığı andan başladı bu "müharibə". Azərbaycan igidləri, oğulları vəzifəsindən, doğulduğu və yaşadığı məkandan asılı olmayaraq hər kəs general-mayorun qisasını alacağına söz verdi. Ali Baş Komandanımızın ətrafında birləşərək 30 ildir əsir olan torpaqlarımızın azadlığı, şəhidlərimizin qisası uğrunda mübarizəyə başladılar.

Bəli, generalımızın, şəhidlərimizin qisası alındı və torpaqlarımız demək olar ki, işğaldan təmizləndi. 2020- ci ilin 27 sentyabrında başlanan bu əks-hücum, qisas xarakterli Vətən müharibəsində hər döyüşdə Polad əzmi hiss olundu və qələbə qazanıldı.

Ali Baş Komandan İlham Əliyev döyüşçü əzmini, general- mayor ləyaqətini yüksək qiymətləndirdi-Polad Həşimova Azərbaycanın Milli Qəhrəmanı adı verildi! Ruhun şad olsun, şəhidim! Sən onsuz da bu xalqın qəhrəmanı idin, bu adı ölkə Prezidenti bir daha təsdiqlədi və sənədləşdirdi.

Tam yetkinlik var ola bilməzdi bir ömürlük... Həyat o ömürləri həmişə baharda saxlar- belə insanlar "bahar ömürlü"lərdir. Axı bahar həmişə gözəllik və güclülük rəmzi olmuşdur. Qüdrət və müdriklik tək- tək insanlara məxsus olar gənc yaşlarında. Polad da məhz belələrindən idi. Poladlar dünyaya tək-tək gələr, tək-tək yetişər, az yaşar-əbədi yaşar, ancaq qərinələrə bərabər bir ömürlə köçər yaddaşlara! Tarix yazarlar vicdana, şərəfə, sədaqətə, məhəbbətə, sevgiyə! Tarix yazarlar yenidən! Adları qara haşiyələrlə hifz olunan kimi görünsə də, tarixə-təqvimə qırmızı xətlə iz salarlar! Bu qırmızı şəhidliyin al qan rəmzidir! Bu əbədiliyin, əbədi seçilənlərin nümunə rəngidir! Həyatın qiyməti budur, böyüklüyün qiyməti budur! İnsanlardan, nəsillərdən fərqli olaraq tarix dəyişməz! Sən öz ömrünlə qocaman bir tarix yazanlardansan, Polad! Tarix yazıb tarixlərdə yaşayan igidim!

## POLADIM

*İnsanlığın qarşısında vicdan timsalı,*
*Təlatümlü dünyamızda "İnsan" imzalı,*
*Qəhrəmanlıq zirvəsində Danko misalı,*
*Əqidəsi poladlaşan igid Poladım!*

*Görünməyən məqamları görə bilirdin,*
*Qəm üstünə sevincini hörə bilirdin,*
*Həm zəhmli, həm qayğıkeş Poladlığınla,*
*Əsgərlərə insanlığı bölə bilirdin!*

*Sən keçərdin dərələrin boğanağından,*
*Heç çaşmadan dolayların doğanağından,*
*Zirvələrdə yay günləri qızmar günəşi,*
*Qar-sazaqda Qarabağdan, Murov dağından!*

*Sən Vətən düzündə çiçək bitirdin,*
*Kiminsə gözündə bitən olmadın,*
*Vətən göylərində duman itirdin,*
*Qatı dumanlarda itən olmadın!*

*İnsanlığa yazılıbdır əyilməzliyin,*
*Əqidəsi qayalara oxşardı, təndi,*
*İgidliyin, ölməzliyin, yenilməzliyin,*
*Sonu Qələbədi, sonu Vətəndi!*

**BİBİXANIM**